# 81 nəfərin də Laçın həsrəti bitdi

**Yurd həsrəti çəkən keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma torpaqlarına geri dönürlər. Dünən növbəti köç karvanı Bakının Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 21 ailə, yəni 81 nəfər köçürülüb.**









## İndiyədək Laçına 1326 nəfər qayıdıb

Laçın şəhər sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra Prezident İlham Əliyevin göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar. Bununla da şəhərə köçürülənlərin sayı 1326 nəfərə (346 ailə) çatıb. Yaxın gələcəkdə Laçına 16-18 min insanın köçürülməsi nəzərdə tutulub.

Bərpa və yenidənqurma işlərinin davam etdiyi ərazilərimizə mərhələli şəkildə qayıdış həyata keçirilir. Bu günədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 346 ailə (1326 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 96 ailə (382 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə 3597 keçmiş məcburi köçkün dədə-baba yurduna qovuşub.

## Şəhərdə tikinti-quruculuq davam edir

İşğal dövründə Ermənistan tərəfindən viran qoyulan, dağına-daşına belə zərər yetirilən, lakin əzəli və əbədi sahiblərinə artıq geri qayıdan ərazilərimiz indi nəhəng tikinti-quruculuq meydanına çevrilib. Böyük qayıdış proqramının icrasına ötən ilin iyul ayında başlanılıb. Dövlət proqramının prioriteti vətəndaşlarımızın tezliklə yurda dönüşünü reallaşdırmaqdır. Qarabağ və Şərqi Zəngəzurda müasir şəhər və qəsəbələr, kəndlər salınır, yaşamaq üçün bütün infrastrukturlar inşa edilir. Dövlət başçısı İlham Əliyevin milli çağırışımız kimi xarakterizə etdiyi Böyük qayıdış sürətli və layiqli bir şəkildə həyata keçirilir. Azərbaycan dövləti təxminən növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonları üzrə 150 mindən çox insanı doğma yurdlarına qaytarmağı planlaşdırır. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min nəfərin dönməsi nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurun hər bir bölgəsi kimi Laçında da yenidənqurma və təmir-bərpa işləri geniş vüsət alıb. Bu gün Laçın regionun ən aparıcı ərazilərindən birinə çevrilib. Növbəti illər ərzində şəhər ərazisi daha da genişləndiriləcək.

Baş plan layihəsində təbii yaşıllıqlarla əhatə olunmuş şəhərin təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Eyni zamanda çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Laçın şəhərində ilkin mərhələdə 712 obyekt üzrə tikinti-quruculuq işləri davam edir. Onlardan 75-i qeyri-yaşayış, 628-i fərdi yaşayış, 144 mənzildən ibarət 9-u isə ümumi yaşayış evləridir. Şəhərdə görülən bərpa və quruculuq işləri kəmiyyət, keyfiyyət göstəriciliyi ilə yanaşı, yüksək iqtisadi strateji üstünlükləri ilə də diqqəti cəlb edir.

Əhalinin məşğulluğunun təşkili məqsədilə, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur. Ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-23 noyabr, № 255.- S.11.